# Nəsimi həmişə müasirdir

**Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov sentyabrın 23-25-də ölkəmizdə keçiriləcək Nəsimi Şeir, Mənəviyyat və İncəsənət Festivalı ilə bağlı açıqlamasında bildirib:**

– Heydər Əliyev Fondu, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə ənənəvi keçirilən Nəsimi Festivalı Bakı və Şamaxıda təşkil olunacaq. Beynəlxalq mərasim elmi konfransla Bakıda başlayacaq, daha sonra Şamaxıda davam edəcək.

Nəsimi Festivalı mədəniyyətlər və nəsillər arasında yaradıcı dialoqu təşviq etməyi hədəfləyir. Bu tədbir əbədi həqiqət axtarışında olan Nəsimini xalqa və dünyaya daha da yaxınlaşdırmaq yolunda növbəti addımdır.

Akademik qeyd edib ki, Böyük Britaniya, Almaniya, Pakistan, Oman, İran, İraq, Türkiyə, Orta Asiya respublikaları, eləcə də



Azərbaycanın tanınmış alimlərinin iştirak edəcəyi festivalda Nəsiminin yaradıcılığı, həyat yolu, onun ədəbi mühit içərisindəki yeri və fəlsəfi baxışları yenidən araşdırılacaq, təhlil olunacaq. Nəsimi bu gün yenidən qayıdır, gələcəklər içərisində həmişə qayıdacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*